# Dövlətlə özəl sektor əməkdaşlığının uğurlu modeli

## Ağdam Sənaye Parkı Qarabağın iqtisadi yüksəlişinə töhfə verəcək

**30 ilə yaxın erməni işğalına və ən çox dağıntılara məruz qalan, ötən il Vətən müharibəsində bir güllə belə atılmadan, şəhid verilmədən geri qaytarılan Ağdam özünün azad günlərini yaşayır. Ağdamda böyük canlanma, yeni həyat başlayıb. "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır" - deyə Prezident İlham Əliyev bu ilin may ayının 28-də Ağdama səfəri zamanı bildirib. Bu gün işğaldan azad olunmuş ərazilərdə bütün zəruri tədbirlər həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir.**

Məlum olduğu kimi, Prezident İlham Əliyev bu il may ayının 28-də "Ağdam Sənaye Parkının yaradılması haqqında" fərman imzalayıb. Fərmanda bildirilir ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin milli iqtisadiyyata sürətli inteqrasiyasının təmini, dayanıqlı inkişafı, eləcə də layiqli yaşayış şəraitinə nail olunması üçün genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir. Ağdam Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı (təkrar emalı) və satışı üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir.

Ağdam hələ Sovetlər dönəmində yalnız kənd təsərrüfatı ilə deyil, həm də bəzi sənaye məhsulları ilə tanınmışdır. Müasir istehsal infrastrukturuna malik sənaye parkının yaradılması ölkədə sənaye sahələrinin, eləcə də ölkə iqtisadiyyatının yüksəlişinin təmin edilməsini nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Sənaye parklarının yaradılması, həmçinin, qeyri-neft sektorunun davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir. Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılmışdır. Agentliyin yaradılmasının əsas məqsədi sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlamaq, həyata keçirilməsini təmin etmək, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərini həyata keçirməkdir.

Ağdam Sənaye Parkının fəaliyyətinin təşkili, idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirir və bu park Azərbaycan ərazisində beşinci, Cəbrayıl rayon ərazisində yaradılan "Araz Vadisi İqtisadi Zonası" sənaye parkı isə altıncı olacaq. Ağdamda ayrılan sahə işğaldan əvvəl də sənaye istehsalı üçün istifadə edilib. Park Ağdam ətrafında 190 hektar ərazidə tikiləcək və rayona çəkilməsi planlaşdırılan əsas avtomagistral və dəmir yolu kommunikasiyalarının kəsişməsində yerləşəcək. Parkın inkişafı mərhələli şəkildə həyata keçiriləcək. Onu da qeyd edək ki, burada rezidentlər dövlət tərəfindən torpaq sahəsi, nəqliyyat və kommunal xidmətlər də daxil olmaqla lazımi infrastrukturla təmin olunacaq. Aşağı icarə haqqı, on il müddətinə gəlir və əmlak vergisindən, habelə istehsal məqsədləri üçün avadanlıq və texnologiya idxalına görə on və yeddi il müddətində ƏDV və idxal rüsumlarından azad edilmə sənaye parklarının rezidentləri üçün əlavə stimul olacaq. Sənayeləşmə prosesi isə mərhələli şəkildə həyata keçiriləcək. Öncə Ağdam şəhərinin və ona bitişik qəsəbələrin abadlaşdırılmasına ehtiyac duyulduğundan təbii ki, ilk mərhələdə tikinti materialları istehsal edən şirkətlər parkın rezidentləri olacaq. Bundan əlavə, tikinti materiallarının ticarətinin təşkili üçün 5 hektar sahə ayrılacaq. Üstəlik, tikinti materiallarının satışı üçün yerlər ilk növbədə, park ərazisində öz istehsalını təşkil edən şirkətlərə veriləcək.

Prezident İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Qarabağda həyata keçirilən və keçiriləcək layihələr haqqında demişdir: "... Gələcəkdə burada iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının təməli qoyuldu. Bu parkın ərazisi təqribən 200 hektara yaxındır və orada yüzlərlə, gələcəkdə bəlkə də minlərlə insan işlə təmin ediləcək". Ağdam Sənaye Parkında mobilizasiya, qida sənayesi müəssisələri, kiçik istehsal və xidmət müəssisələri, istehsal sahəsi, tikinti materiallarının satışı, TIR parkı, texnika təmiri sahəsi, texniki zona və iri sənaye müəssisələri üçün nəzərdə tutulmuş sahələr olacaq. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili planlaşdırılır. Sənaye mərkəzində kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri də fəaliyyət göstərəcəkdir.

Hazırda Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq burada rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri aparılıb. Sənaye Parkında sosial zonanın təşkili istiqamətində işlər artıq yekunlaşdırılıb. Subartezian quyusundan Sənaye Parkının sosial zonasına su xətləri çəkilib. Hazırda Sənaye Parkının işıqlandırılmasında günəş enerjisindən qidalanan panellərdən istifadə edilir.

Ümumiyyətlə, ölkəmizdə Sənaye parklarının fəaliyyəti dövlətlə özəl sektor əməkdaşlığının uğurlu modelidir. Ağdam Sənaye Parkının infrastrukturuna qoyulmuş dövlət investisiyaları Qarabağda katalizator rolunu oynayacaq və özəl investisiyalar üçün zəmin yaradacaqdır.

Sözsüz ki, Ağdam Azərbaycanın digər iqtisadi dirçəliş dövrünü yaşayan rayonları kimi yeni sənayeləşmə ilə önə çıxacaq. Ağdamın strateji-coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsində mühüm rol oynayacaq.

**M.MİRZƏ,
"Respublika".**

Respublika.- 2021.- 15 dekabr.- S.10.